*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1*
*Səhifə: 184-191*
*https://doi.org/10.59849/2663-4406.2024.1.184*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

# XIX əsrin ikinci yarısı – XX əsrin əvvəlləri Azərbaycan mətbuatı və erməni millətçiliyi

***(M.Ş.Mirzəyevin "Qafqazda türk mətbuatı tarixinə dair materiallar" memuarı əsasında)***

**Şahbaz Şamıoğlu**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: shindi61@mail.ru

**Annotasiya.** XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Azərbaycan xalqının milli-mənəvi tərəqqisinin qarşısını almaq, mətbuat quruculuğu prosesinə maneçilik törətmək məqsədi ilə çoxçeşidli, olduqca məkrli tendensiyalı siyasət həyata keçirilmişdir. "Kəşkül"ün bağlanmasından (1891) "Şərqi-Rus"un yaranmasına qədər (1903) Azərbaycan dilində mətbuat orqanlarının yaranmasına imkan verilməmişdir. Həmin üzdəniraq siyasətin həyata keçirilməsində çar məmurları ilə yanaşı Tiflis Mətbuat İşləri Komitəsində məsul vəzifələr tutan, senzorluq edən ermənilər xüsusi fəallıq göstərmişlər. Bu barədə 1906-1918-ci illərdə Şərq dilləri üzrə ilk azərbaycanlı senzor Mirzə Şərif Mirzəyevin "Qafqazda türk mətbuatı tarixinə dair materiallar" memuarında ətraflı məlumatlar verilmişdir. Sovet dövründə çapına icazə verilməyən memuarda erməni senzorlar – Kişmişov və Qaraxanovun Azərbaycan mətbuatına qarşı təşkilatlanmış qruplar təşkil etdikləri, həmin dövrün rusdilli qəzetlərində tendensiyalı yazılarla çıxış etdikləri, Azərbaycan ziyalılarını panislamizm və pantürkizmdə günahlandırdıqları barədə çoxsaylı faktlar öz əksini tapmışdır. Məqalədə milli mətbuat quruculuğuna qarşı ermənilərin dağıdıcı fəaliyyəti memuardakı materiallar əsasında təhlil edilmiş, dəyərləndirmələr aparılmış, fikir və mülahizələrin təsdiqi üçün digər mənbələrə, o cümlədən C.Məmmədquluzadə və H.Zərdabinin xatirələrinə istinad edilmişdir. Belə nəticəyə gəlinmişdir ki, ermənilərin Azərbaycan mətbuatının formalaşması və inkişafı prosesinə qarşı yönəlmiş bədnam siyasətini əks etdirən materialların hərtərəfli və geniş tədqiqinə ciddi ehtiyac duyulur.

**Açar sözlər:** Mirzə Şərif Mirzəyev, memuar, Azərbaycan mətbuatı, milli-mənəvi tərəqqi, tendensiyalı siyasət, erməni senzorlar

**Məqalə tarixçəsi:** göndərilib – 12.04.2024; qəbul edilib – 26.04.2024

# Azerbaijani press and Armenian nationalism during the second half of the 19th century - early 20th century

***(On the basis of memoir "The materials on the history of the Turkish press in the Caucasus" by M.Sh.Mirzayev)***

**Shahbaz Shamioglu**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: shindi61@mail.ru

**Abstract.** During the second half of the 19th century – early 20th century multidimensional, rather insidious, tendentious policy was implemented in order to prevent the national and moral progress





of the Azerbaijani people and to prevent the press building process. It was not allowed to create press organs in the Azerbaijani language from the moment the "Kashkul" (1891) was closed until the "East-Russian" (1903) was created. In implementing that so-called policy together with tsar officials armenians who held a responsible position in Tbilisi Press Affairs Committee and censored showed special activity. Detailed information was given about this in the memoir "The materials on the history of the Turkish press in the Caucasus" by Mirza Sharif Mirzayev, first Azerbaijani censor on oriental languages during 1906-1918. Armenian censors – Kishmishov and Garakhanov formed organized groups against the Azerbaijani press, they published tendentious writings in Russian-language newspapers of that period, and accused Azerbaijani intellectuals of Pan-Islamism and Pan-Turkism; and these facts were reflected in a memoir not permitted to be printed during the Soviet regime. In the article the destructive activities of Armenians towards the building of the national press were analyzed on the basis of materials in memoir, evaluations were carried out, other sources, including memories of J.Mammadguluzade and H.Zardabi were also mentioned for approval of ideas and opinions. It was concluded that there is a serious need for a comprehensive and extensive study of the materials reflecting the notorious policy of Armenians against the formation and development of the Azerbaijani press.

**Keywords:** Mirza Sharif Mirzayev, memoir, Azerbaijnai press, national- moral progress, tendentious politics, Armenian censors

**Article history:** received – 12.04.2024; accepted – 26.04.2024

## Giriş / *Introduction*

Azərbaycan ədəbi-mədəni düşüncə tarixində müstəsna yeri olan "Əkinçi" qəzetinin (1875-1877) Avropanın ilk mətbuat orqanından (1609) 266 il gec meydana gəlməsi, şübhəsiz ki, bir sıra suallar doğurmaqdadır. Milli mətbuatın təşəkkülü, inkişaf istiqamətləri və meyilləri üzərində aparılan təhlillər qədim və zəngin mədəniyyətə malik bir xalqın mətbuat quruculuğu sahəsində kifayət qədər gecikməsinin obyektiv və subyektiv səbəblərini aydınlaşdırmağa imkan verir. Sovet dövrü mətbuatşünaslığında bu suala ən müxtəlif rakurslardan cavablar verilmiş, görkəmli mətbuat tarixçilərimiz bunun səbəblərini dövrün imkan verdiyi çərçivədə izah etməyə çalışmışlar. Ədəbiyyatşünas alim və mətbuat tariximizin araşdırıcılarından olan Əziz Mirəhmədov yazırdı ki, öz dövri mətbuatını Avropa XVI əsrdə, Rusiya isə XVIII əsrin ilk illərində yaratdığı halda, Azərbaycan buna ancaq keçən əsrin (XIX əsr nəzərdə tutulur – Ş.M.) 75-ci ilində nail olmuşdur; yəni feodal mütləqiyyəti və orta əsr geriliyinin ucbatından "Əkinçi"nin mənsub olduğu xalqın intizarı çox uzun çəkmişdir [3, s.4]. Ə.Mirəhmədovun fikirləri kifayət qədər əsaslıdır və eyni zamanda, qeyd etmək lazımdır ki, mətbuat quruculuğuna yalnız "mütləqiyyət" və "orta əsrlər geriliyi" mane olmamışdır və bu maneçiliyin kökündə həm də çox ciddi subyektiv amillər dayanırdı.

## Əsas hissə / *Main part*

Çarizm XIX əsrdə türk-müsəlman xalqların maariflənməsinin qarşısını hər vəchlə almaq üçün kifayət qədər məkrli və çoxçeşidli siyasət aparmışdır. Cəlil Məmmədquluzadə məşhur "Xatiratım" memuarında çarizmin bu mənfur siyasətini ifşa edərək yazırdı: "Məlumdur ki, o vaxtlar müstəbid Rusiya hökumətinin mənəm-mənəm bir dövründə ki, rus tayfasından savayı, türk kimi kiçik bir millətə etina olunmurdu, türk dilində bir müstəqil cəridə intişarına yol vermək Peterburq hökumətindən heç gözləmək olmazdı. Xüsusən ki, İran və Osmanlı ilə həmsərhəd olan Qafqaz müsəlmanlarının maarifinin qüvvətlənməyinə ruslar heç bir vaxt yol verməк istəməzdilər" [5, s.54]. A.Bakıxanov, M.Ş.Vazeh və İ.Qutqaşınlı ilə başlanan, M.F.Axundzadə ilə kamilləşən Azərbaycan maarifçiliyi "orta əsr geriliyi"ni, sözün əsl mənasında, geridə qoysa da, məhz çarizmin yeritdiyi siyasət mətbuat

quruculuğunu xeyli ləngitmiş, hətta mətbuatın və milli dildə çap işlərinin yaranmasına sosial sifariş olduğu halda belə, ona imkan verməmişdir. M.F.Axundzadənin öz müəllimi M.Ş.Vazehlə birlikdə mətbəə yaratmaq barədə xahişinin rədd edilməsi bunun bariz göstəricisidir. "Kəşkül"ün bağlanmasından (1891) "Şərqi-Rus"un yaranmasına (1903) qədər Azərbaycan türklərinin mətbuatsız qalmaları məhz həmin iyrənc siyasətin nəticəsi olmuşdur. XX əsrin əvvəllərində, 1905-ci il hadisələrindən, çarizmin məcburi yumşalmaya getməsindən sonra Azərbaycan mətbuat orqanları senzuradan əlavə, daha bir iyrənc siyasətlə üz-üzə qalmışdır: Qafqaz canişinliyində, Tiflisdə mühüm dövlət qulluğunda, o cümlədən Tiflis Mətbuat İşləri Komitəsində məsul vəzifələr tutan, senzorluq edən ermənilər Azərbaycan mətbuatına qarşı məqsədyönlü, riyakarcasına təşkil edilmiş dağıdıcı fəaliyyətə start vermiş, hamilərinin köməyindən məharətlə istifadə edərək çox zaman öz çirkin niyyətlərinə çatmağa nail olmuşlar. Azərbaycan dilində mətbuat orqanlarının yaranması və fəaliyyətinə çar senzurasının maneçiliyi ilə bağlı bu vaxta qədər yüzlərlə tədqiqat işi hazırlansa da, – ən mükəmməl araşdırmalardan biri A.Zeynalovun əsəridir [7] – ermənilərin milli mətbuatımızın inkişafına qarşı total maneçiliyinə həsr olunmuş irihəcmli elmi işlərin yazılmasına ciddi ehtiyac duyulur. Sovet dövründə saxta beynəlmiləlçilik ideyaları, siyasi sistemin tələbləri buna imkan verməmişdir. Müstəqilliyimizin bərpasından keçən müddət ərzində azğın ermənilərin mənfur siyasətinin detallarına qədər öyrənilməsi, erməni xislətinin faş edilməsi istiqamətində atılan addımlar təqdirəlayiqdir və bu işin davam etdirilməsi kifayət qədər vacibdir. Bu işdə ən mühüm mənbə kimi, uzun illərdən bəri ictimailəşdirilməsinə imkan verilməyən arxiv materiallarının çapı, tədqiqi və təbliği ən aktual vəzifələrdəndir. 1906-1918-ci illərdə Şərq dilləri üzrə ilk azərbaycanlı senzor Mirzə Şərif Mirzəyevin "Qafqazda türk mətbuatı tarixinə dair materiallar" memuarı [6] erməni millətçilərinin milli mətbuatımıza qarşı məkrli siyasətinə dair bol materiallar verməkdədir. M.Ş.Mirzəyev memuarında Tiflis Mətbuat İşləri Komitəsində öz yerlərini bərkidən Karqanov, Qayıtmazov, Məlik-Mehrabov, Kişmişov, Qaraxanov kimi ermənilərin adlarını çəkmiş, onların türk düşmənçiliyini faktlarla sübut etmişdir. Ermənilər yalnız Mətbuat İşləri Komitəsində deyil, Qafqaz canişinliyində də məsul vəzifələr tutmuş, türkə düşmənçiliklərini planlı şəkildə həyata keçirmiş, üstəlik xidmətləri dövründə və sonrakı illərdə maddi cəhətdən xüsusi diqqətdə saxlanılmışlar. Qafqaz canişinliyində uzun illər tərcüməçi kimi fəaliyyət göstərmiş M.F.Axundzadə yazırdı ki, canişinlikdə çalışmış erməni Mirzəcan Mədətovun və Şamirxan Bəylərovun maddi ehtiyacları artıqlaması ilə qarşılanmışdır. Yaxud M.F.Axundzadənin həyat yoldaşı Tubu xanım böyük ədibin vəfatından sonra ailəsinə etinasızlıq göstərildiyindən şikayətlənir, onunla bir yerdə işləmiş erməni Məliknubarovun ailəsinə isə xüsusi qayğı göstərildiyini vurğulayırdı [1, s.48, s.341].

M.Ş.Mirzəyevin memuarı mətbuat tarixinə dair faktiki materiallar baxımından kifayət qədər zəngindir, ardıcıl və sistemli şəkildə, tam obyektiv mövqedən qələmə alınmışdır. Müəllif fikir və mülahizələrini müvafiq misallar əsasında, statistik göstəricilərlə möhkəmləndirmişdir. Əsər üzərində təhlillər göstərir ki, M.Ş.Mirzəyev tamamilə əmin olmuşdur ki, ermənilər Azərbaycan-türk mətbuatının yaranması və formalaşması prosesinə açıq şəkildə, dəstəkçilərinin yardımı hesabına nümayişkaranə mane olmuşlar. Lakin Azərbaycan ziyalılarının çox ciddi müqaviməti, cəmiyyətdə gedən proseslər ermənilərə öz bədxah niyyətlərini sona qədər davam etdirməyə imkan verməmişdir.

M.Ş.Mirzəyev təhlilləri hesabına obyektiv, eyni zamanda, sırf subyektiv amillər ucbatından Azərbaycan mətbuatının (burada, həmçinin, çap və nəşriyyat işləri nəzərdə tutulur) keçib gəldiyi yolu mərhələlərə ayırır: a). 1853-1906-cı illəri əhatə edən "miskin" dövr (həmin dövr iki hissədə təqdim edilir); b) 1906-1917-ci illər arasında canlanma dövrü – bütövlükdə üç hissə. M.Ş.Mirzəyevin diqqət yetirdiyi birinci mərhələdə məhz ermənilər anti-türk fəaliyyətləri ilə əllərindən gələni etmişlər ki, Azərbaycan xalqı mətbu orqanlardan məhrum edilsin. İkinci mərhələdə biz artıq Azərbaycan ziyalılarının kəskin müqavimətini, fəallığını, qarşısıalınmaz istəklərinin şahidi oluruq və M.Ş.Mirzəyev həmin mərhələni haqlı olaraq canlanma dövrü kimi xarakterizə etmişdir. Təsadüfi deyildir ki, görkəmli mühacir alim, Azərbaycan mətbuatı tarixinə dair mükəmməl tədqiqatların





müəllifi Mirzəbala Məhəmmədzadə "İki inqilab arasında" (1918, Tiflis) əsərində milli oyanışın nəticələri barədə haqlı olaraq vurğulayırdı: "Tarix ... kəskin qələm ilə yazır ki, azəri türklərin əlli illik müddətində mədəniyyət və milliyyət yolunda göstərdikləri diriliyi Asiya dünyasında Yapondan başqa heç millət göstərməmişdir. Heç millət 25 sənədə milli bir ədəbiyyat, milli bir teatro, milli bir musiqi və milli bir mətbuat yaratmamışdır" [4, s.14]. M.Məhəmmədzadənin düşüncələrini bir qədər inkişaf etdirərək qeyd etmək olar ki, 1891-ci ildən 1903-cü ilə qədər ana dilində mətbuat yaratmaq imkanından məhrum edilən bir millət öz potensialı hesabına cəmi on beş ildən sonra milli dövlətçiliyini qura bilmiş, Şərqdə ilk demokratik cümhuriyyətin əsasını qoymuşdur və bu, dünya tarixində heç bir xalqa müyəssər olmayan nadir bir hadisədir.

1853-1906-cı illəri əhatə edən ("miskin dövr") mərhələ memuarda iki aspektdə – ermənilərin dağıdıcılıq fəaliyyətinin miqyası çərçivəsində araşdırılmışdır. Birinci aspekt (hissə) 1853-cü ildən 1904-cü ilə qədər olan dövrü əhatə edir. M.Ş.Mirzəyev yazırdı: "Birinci hissə türk mətbuatının maraqlarının Senzura Komitəsində çalışan adıçəkilən mətbuata nəzarəti özünün ayrılmaz gəlir mənbəyi hesab edən erməni məmurlarının tamahına qurban verildiyi 1853-1904-cü illəri əhatə edir" [6, s.16]. Deməli, 1853-cü ildən 1904-cü ilə qədər ermənilər Azərbaycan dilində çap məhsullarının meydana çıxmasına hər vəchlə mane olmuşlar və öz çirkin məqsədlərinə qismən çata bilmişlər. Mənsəb sahibi olan ermənilər öz iqtidarları daxilində dağıdıcılıqla məşğul olduqları kimi, hər hansı bir sıravi erməni də öz imkanları hesabına Azərbaycan mətbuatının kökünü baltalamağa çalışmışdır. "Əkinçi" qəzetinin mürəttibi erməni Minasov H.Zərdabinin əlindən əmək haqqı almaqla yanaşı, xəlvətdə onun bütün addımlarını izləyir, müvafiq orqanlara müntəzəm məlumatlar ötürür, qəzetin bağlanmasına, yaxud ən azı H.Zərdabiyə mane olmağa çalışırdı. H.Zərdabi çox sonralar, "Həyat" qəzetinin 28 dekabr 1905 (№129) və 3 yanvar 1906-cı il (№2) tarixli saylarında çap etdirdiyi "Rusiyada əvvəlinci türk qəzeti" məqaləsində "Əkinçi"nin bağlanmasından danışarkən ermənin xəyanətini də xatırlayaraq yazırdı: "Elə ki, Dağıstanda şuluqluq başlandı, "Əkinçi"nin günü dəxi qara oldu: bir gün Nəcəf bəy Vəzirovun məqaləsini ki, Moskvadan göndərmişdi, vermişdim düzməyə. Məqalədə bir dərviş bazarda dükanların qabağında qəsidələr oxuyub, onları elm təhsil etməyə çağırırdı. Senzor qol çəkib çap olmağa izin vermişdi. Qəzet çap olub paylanandan sonra qubernatorun hökmünə görə o nömrəni bağlayıb məni istədilər. Gedib gördüm ki, mənim Minasovum oradadır. Qubernator buyurdu ki, dərvişin sözlərinin qeyri mənası var. Ona görə nömrəni bağlayıb sənə hökm edirəm ki, bir qeyri nömrə çap edəsən. Cavab verdim ki, qeyri nömrə çıxarda bilmərəm. Mən gedəndən sonra qubernator özü bir nömrə çıxardıb payladı. Çünki nömrə mənim adımdan çıxmışdı, mən təvəqqe elədim ki, dəxi mənim adımdan qəzet çıxarmasınlar..." [2, s.41].

M.Ş.Mirzəyev ermənilərin milli mətbuat orqanlarımıza qarşı artıq total xarakter alan fəaliyyətlərinin ikinci mərhələsini "Türk mətbuatı tarixində qanunsuzluğun kulminasiyası" adlandıraraq yazırdı: "İkinci hissə isə məmurların maddi tamahla yanaşı, türk mətbuatını ya tamamilə məhv etmək və ya onun inkişafını heç olmasa 20-25 il gecikdirmək məqsədi ilə istiqamətlənən fəaliyyətini əhatə edən 1904-1906-cı illərə aiddir" [6, s.16]. Ermənilərin önünü bu dövrdə həm Azərbaycan ziyalılarının milli-siyasi düşüncəni dərinləşdirmək, milli ideya ətrafında birləşdirmək sahəsində arzuları və qarşısıalınmaz istəkləri kəsmiş, həm də imperiya daxilində baş verən proseslərdən məharətlə yararlana bilmələri öz bəhrələrini vermişdir. Məhz 1905-ci il 17 Oktyabr manifestindən sonra bir-birinin ardınca mətbuat tariximizdə silinməz izlər qoymuş qəzetlər və jurnallar işıq üzü görmüşdür. M.Ş.Mirzəyev həmin dövrü çox haqlı olaraq canlanma mərhələsi kimi xarakterizə etmişdir.

Çarizmin çirkin siyasəti, ermənilərin məqsədyönlü fəaliyyətinin nəticəsi idi ki, "Əkinçi"yə qədər Azərbaycan dilində çap məhsullarına rast gəlinmir. M.Ş.Mirzəyevin təqdim etdiyi cədvəllərdən görünür ki, 1867-1874-cü illərdə Tiflisdə dövri və dövri olmayan nəşrlərlə bağlı vəziyyət aşağıdakı kimidir: dövri nəşrlər rus dilində – 1867-ci ildə 1, 1874-cü ildə 2; gürcü dilində müvafiq olaraq 3 və 5; Azərbaycan dilində heç nə yoxdur. Həmin illərdə dövri olmayan nəşrlərin siyahısında

yenə də adımız yoxdur. Rus dilində 1867-ci ildə 23, 1874-cü ildə 27; gürcü dilində müvafiq olaraq 10 və 14; Azərbaycan dilində çap məhsuluna dair statistik məlumat yoxdur [6, s.21].

M.Ş.Mirzəyevin memuarı ermənilərin Azərbaycan mətbuatına qarşı planlı hücumları ilə bağlı faktiki materiallarla doludur. Müəllif fikir və mülahizələrini real rəqəmlərlə möhkəmləndirməklə yanaşı, ermənilərin məkrli planlarının həm açıq, həm də pərdəarxası məqamlarını dəqiqliklə göstərə bilmişdir. M.Ş.Mirzəyev Senzura Komitəsinin Azərbaycan mətbuatını planlı şəkildə məhv etdiyini yazır və göstərirdi ki, bu çirkin işlərin həyata keçirilməsində ermənilər fəal rol oynamaqla yanaşı hər vəchlə erməni qəzetlərinin, o cümlədən daşnaksütyun partiyasının orqanının inkişafına çalışırdılar: "O zaman Senzura Komitəsi olduqca qəddar tədbirlərlə türk mətbuatını öldürdükdə, türk mədəni cəmiyyətinin inkişafını ləngitdikdə komitənin üzvləri olan Kişmişov və Qaraxanov daşnaksütyun partiyasının mətbu orqanı olan "Araç"ın yüzlərlə nüsxəsini dövriyyəyə buraxırdılar" [6, s.45]. Ermənilərin himayəsi ilə daşnakların mətbu orqanlarının hətta Senzura Komitəsinin sanksiyalarından kənarda qaldığı, yəni senzura nəzarətindən yayındırıldığı aydınlaşır. Azərbaycan mətbuatı üzərinə çox ciddi basqılar edildiyi bir dövrdə ermənilərə yaradılan bu şərait hər halda mətbuatın durumuna və inkişafı işinə öz mənfi təsirini göstərirdi: "Canişin dəftərxanası ilə Tiflis Komitəsi arasında olan yazışmalardan, həmçinin ... faktiki olaraq dövlət müşaviri Kişmişovun şərhlərinin məzmunundan aydın olur ki, türk mətbuatına pis münasibət fonunda daşnak mətbuatına tam sərbəstlik verilmişdir" [6, s.45].

Ermənilər Azərbaycan mətbuatına qarşı çirkin mübarizədə yaxşı təşkilatlanmış qruplardan istifadə etmişlər. Onların bu məkrli planları əslində çarizmin Azərbaycan mətbuatına yönəlik siyasəti ilə üst-üstə düşürdü və ona görə də ermənilər çar məmurları ilə birgə fəaliyyət göstərirdilər. Bu cür üzdəniraq siyasətin daşıyıcıları mümkün qədər müstəqil Azərbaycan mətbuatının yaranmasına mane olmaq, yaxud heç olmasa, hakimiyyət üçün ziyansız türk qəzetinə nail olmaq yolunu tutmuşdular. M.Ş.Mirzəyev yazırdı ki, türklərin qəzetə olan aclığı getdikcə daha da güclənir, rus-yapon müharibəsinin uğursuzluğundan doğan narazılıq Qafqaz müsəlmanlarını da bürüdü və bunun nəticəsi olaraq müsəlman cəmiyyəti türk dilində qəzetə nəşrinə icazə almağa qəti qərar verdi. Memuardan aydın olur ki, Mərkəzi Ali Qafqaz İdarəsi türk-müsəlman ziyalıların qəti mövqeyi qarşısında güzəştə getməli olur və hakimiyyət üçün ziyansız bir türk qəzetinin yaranmasına icazə verir, müvafiq komissiya təyin edir [6, s.33]. Komissiya məmur İ.Koxanovski, Qafqazda müsəlman dini işlərinin rəhbəri V.Osetski, prokuror nəzarətinin nümayəndəsi Kukuranov və erməni əsilli senzor A.Kişmişovdan təşkil edilmişdi. "Şərqi-Rus" qəzeti məhz həmin şərtlər daxilində yaranmışdı. Komissiyanın sonrakı bədnam fəaliyyəti üzərində bir qədər dayanmaq zərurəti vardır. Komissiya üzvlərinin sonrakı missiyası Azərbaycan mətbuatını beşiyindəcə boğmaq, mətbuat yaratmaq barədə təşəbbüsləri yerindəcə məhv etmək idi. Memuarda bu barədə yazılır: "Koxanovski, Osetski, Kişmişov və onlar kimilər "Zaqafqaziya müsəlmanlarının siyasi əxlaqı"na dözə, dayana bilmədilər. Ancaq ciddi və müstəqil türk mətbuatının yaranmasına mane ola bilməyəcəklərini hiss edib, yeni zərərli bir hiylə qurdular..." [6, s.46]. M.Ş.Mirzəyevin təbirincə desək, həmin hiylə əslində milli-mədəni tərəqqiyə, müasirliyə can atan Azərbaycan ziyalılarının yeganə çıxış yolu kimi çar Rusiyasında, Osmanlı və İranda yaşayan türk-müsəlman əhalinin milli-dini əsaslarla bir araya gəlməsi ideyasını boğmaq məqsədi ilə qurulmuşdu. Bədnam komissiya türk-müsəlman əhalinin birlik ideyalarına tamamilə başqa don geyindirərək, Azərbaycan ziyalılarını panislamizmdə günahlandırmaq yolunu tutdu. M.Ş.Mirzəyev situasiyanı təhlil edərək milli düşüncəmizə qarşı çıxanların "səhnəyə panislamizmi atdığını" yazırdı [6, s.46]. Bir müddət keçəcək, Azərbaycan ziyalılarının, siyasət adamlarının fəaliyyətini gözdən salmaq, onların qarşısını kəsmək üçün yeni bir termin dövriyyəyə buraxılacaq: pantürkizm. Məhz panislamizm və pantürkizm yarlıqları ilə damğalanan Azərbaycan ziyalıları həm çar Rusiyası, həm də Sovet dövründə təqiblərə məruz qalacaq, milli-dini tərəqqidən bəhs edənlərin qarşısına sədd çəkiləcək, həbsxanalara atılacaq, sürgünlərə göndəriləcəklər. Ə.Ağaoğlu, Ə.Hüseynzadə və b. da məhz bu yöndə olan təzyiqlərin, ölümlə təhdidlərin təsiri altında





millətə xidmət üçün Vətəndən Türkiyəyə mühacirətə getmişlər. Ötən əsrin otuzuncu illərində məhv edilən ziyalıların hamısının "günah"ı "pantürkist" və "panislamist" olmaları idi...

M.Ş.Mirzəyev türk dünyasının, onun içərisində Azərbaycan türklərinin tərəqqisinə hər vəchlə mane olan düşmən ünsürlərin fəaliyyəti ilə bağlı yazırdı: "Türk siyasi panislamizm doktrinası" Kişmişov və Qaraxanovun rəhbərliyi altında ən kobud formada düzəldilməyə başlandı. Qafqaz hakimiyyət dairələrində müəyyən təəssürat yaratmaq, ictimaiyyəti "xristian dünyasına hücum edən bütün vəhşi müsəlmanlar"ın təhlükəsindən qorumaq üçün Senzura Komitəsinin sevimli üzvləri gözlənilən siyasi təhlükə barədə qəzetlərdə yazılar yazmağa başladılar" [6, s.46]. Maraqlı budur ki, Kişmişov əsasən "Qafqaz" qəzetində "X"-"X", Qaraxanov isə ermənilərin əlində olan "Tiflisskiy listok"da "Xanzadə" təxəllüsü ilə çıxış etmiş, azərbaycanlılara qarşı kin-küdurətini heç bir əsası olmayan, yalanlar üzərində qurulan məqalələrlə açıb-tökmüşdür. Dövlətdən kifayət qədər yüksək maaş alan, əsas işi senzorluq olan həmin ermənilər əllərində olan fürsətdən, onlar üçün yaradılmış şəraitdən istifadə edərək türk düşmənçiliyini açıq müstəvidə aparmaqdan belə çəkinmirdilər. Onların bu üzdəniraq əməlləri barədə yalnız M.Ş.Mirzəyevin memuarında deyil, həmin dövrdə mətbuat orqanlarında çalışan ziyalıların qeydlərində də rast gəlinməkdədir. C.Məmmədquluzadə "Xatiratım" memuarında həmin məşhur türk düşmənlərinin əsl simasını ortaya qoymuşdur. C.Məmmədquluzadə memuarında bir neçə dəfə onların antitürk fəaliyyəti barədə yazmışdır: "O vaxt sansor idarəsində türk şöbəsində türklərdən bir kəs yoxdu. Ancaq iki nəfər şəxs idi: biri erməni Kişmişov, o biri genə erməni Qaraxanov idi..." [5, s.55], "...Elə bədbəxtliyin bir böyüyü də bu idi ki, bizim o vaxtın mətbuatının bir düşməni hökumət qanun və qərardadları ola-ola, o biri düşmənləri də Kişmişov kimi senzorlar idi" [5, s.64]. C.Məmmədquluzadə də ermənilərin senzorluq fəaliyyətindən əlavə, Azərbaycan mətbuatının əleyhinə kampaniya apardıqlarını, erməniliyin təbliği ilə məşğul olduqlarını yazırdı: "Bir vaxt Tiflis sansor komitəsinin həmin iki nəfər sansorları – ki, ikisi də erməni idilər, – Tiflisdə rus dilində nəşr olunan "Tiflisski listok" adlı bir qəzetdə türk mətbuatının ziddinə bir böyük kampaniya açmışdılar. Bu qəzet sahibi də Xaçaturov adlı bir erməni idi. Qəzet hərçənd rus dilində nəşr olunurdu, amma onun ikicə məsləki var idi: biri öz cibinə qulluq eləmək idi; digəri də erməni millətinin mənafeyini müdafiə etmək idi" [5, s.64]. C.Məmmədquluzadə saxta panislamizm haqqında da fikirlərini bildirmiş, Azərbaycan ziyalılarına qarşı qoyulan bu siyasətin əsl məqsədləri barədə yazmışdır: "Yuxarıda adları zikr olunan Kişmişov və Qaraxanov sansorlar "Tiflisski listok" qəzetində türk mətbuatı əleyhinə həmişə kampaniya aparırdılar. Və həmişə Rusiya hökumətinin nəzərinə bunu yetirmək istəyirdilər ki, Qafqazda cəmi türk ədib və jurnalistləri "panislamistdirlər" və türk jurnalistləri Qafqaz camaatını islam bayrağının altına çəkmək istəyirlər, bu ittihadi-islam bayrağının da Osmanlı sultanlarının əlində olmağını arzu edirlər və buna da çalışırlar" [5, s.65]. Türkün düşmənləri böhtan kampaniyasını özlərinəxas yalanlarla bəzəməyi, çarizmin ən həssas duyğularını qıcıqlandırmağı bacarır, Qafqazın türk-müsəlman əhalisinin Osmanlı ilə birləşmək yolunda çalışdıqları barədə əhvalatlar uydurur, bu uydurmaları həqiqət kimi Tiflis mətbuatında ardıcıl şəkildə çap etdirirdilər. M.Ş.Mirzəyev "Qafqaz" qəzetində çap olunan bu qəbildən olan uydurmalardan biri barədə yazırdı: "Bu ilk həvarilərin "panislamizm həqiqətləri" haqqında büsbütün nadanlıq etmələrinə baxmayaraq, Qafqaz hakimiyyəti onlara inandı; həyasızlıq bəzən o həddə çatırdı ki, onlar utanmadan belə cəfəngiyyatlar yazır və imzalayırdılar: "Quran türk sultanına tabe olmağı öyrədir, bu hökmə qarşı çıxan hər kəs məhv olacaq..." Onlar belə bir cəfəngiyyatı Qafqaz hökumətinin rəsmi orqanı olan "Qafqaz" qəzetində dərc etmişdilər" [6, s.46].

Memuarda yazılanlara görə, türk mətbuatını məhv etmək istəyən bu ünsürlər öz məqsədlərinə çatmaq üçün bütün vasitələrdən istifadə etmiş, nəhayət, ona nail olmuşlar ki, "Senzura Komitəsi "hesabat qeydlərindən" təsirlənərək" general-qubernatorun göstərişi ilə "dəlil olmayan dəqiq hesabatlar"a görə "Zaqafqaziya müsəlmanları arasında çalışan panislamçıların fəaliyyətini izləmək üçün" tədbirlər görməyə başladı" [6, s.46]. Saxta panislamizm haqqında uydurmalar getdikcə daha böyük coğrafiyanı əhatə etmiş, imperiyanın türk-müsəlman əhalisi haqqında həqiqətdənuzaq

təsəvvür formalaşdırmış, türk-müsəlman əhalinin milli-mədəni tərəqqi yolunda atdığı addımların qarşısı kəsilmiş, yoluxucu xəstəlik kimi bütün idarə və müəssisələrin əməkdaşları "panislamistlər"in ovuna çıxmışlar: "Baş Jandarm İdarəsi və Polis Departamentindən başlayaraq müsəlman əhalisi olan ən ucqar şəhər polis sahələrinə qədər hər kəs – müxtəlif çaplı "çalışqan" inzibatçılar" rəhbərlik qarşısında fərqlənmək üçün öz məlumatlarında mütləq "panislamizmə" toxunmalı idilər. Senzura Komitəsinin üzvləri növbəti dəfə türk mətbuatı haqqında donos yazmağa başladılar və onlar ilk növbədə Zaqafqaziya müsəlmanları arasında yeni dini-siyasi hərəkat barədə ictimai rəy formalaşdırdılar" [6, s.47].

Memuarda ermənilərin açıq antitürk fəaliyyəti barədə mətbu materiallardan nümunələr verilmişdir. Müəllifin yazdığına görə, Kişmişovun "Qafqaz" qəzetində dərc etdirdiyi "Zaqafqaziya müsəlmanlarının mənəvi həyatına baxış" adlı yazısı tamamilə tendensiyalı olmaqla ictimai rəyi çaşdırmağa, türk-müsəlman əhalini gözdən salmağa hesablanmışdır. Guya islam təliminə görə, Türk dövləti bütün müsəlman dünyasının təməl daşıdır və bu təlimdən imtina etmək dövləti dağıtmaq, məhv etməkdir, Türk sultanı xəlifə, Allah tərəfindən göndərilmiş Məhəmmədin varisi hesab olunur...

Memuarda "Həyat" qəzetinin yaranma tarixçəsi və qəzetə qarşı ermənilərin başladığı hücum və böhtan kampaniyası, nəhayət, onun bağlanması ilə bağlı epizodlar öz əksini tapmışdır. Məlumdur ki, "Həyat" qəzetinin nəşrinə icazə almaq üçün H.Z.Tağıyevin köməyi ilə Peterburqa kiçik bir heyət getmiş, Qafqaz Senzura Komitəsinin başı üzərindən müvafiq razılığı ala bilmişdir. Şübhəsiz ki, həm Senzura Komitəsi, həm də ermənilər bununla razılaşa bilməyərək qəzet üzərinə ardıcıl hücumlar təşkil etməklə sonda onun bağlanmasına nail olmuşlar. M.Ş.Mirzəyev memuarda "Həyat"ın taleyi ilə bağlı epizodu düşündürücü olması ilə yanaşı, ironik mahiyyəti ilə də diqqəti cəlb edir: ""Həyat" "doğum evi"nin divarlarından kənarda və Qafqaz mətbuatının "mama"larının iştirakı olmadan doğulduğu üçün bu qeyri-qanuni türk qəzeti Qafqaz Senzura Komitəsinin həssas "qayğı"sını öz üzərində hiss edirdi. Bu qəzeti öldürmək üçün Qafqazda çap işini bilən yeganə dövlət qurumu hər cür tədbirə əl atdı və məqsədinə çatmaq üçün heç nədən çəkinmədi..." [6, s.50].

## Nəticə / *Conclusion*

M.Ş.Mirzəyevin "Qafqazda türk mətbuatı tarixinə dair materiallar" memuarı Azərbaycan mətbuatı tarixinin öyrənilməsi işində kifayət qədər etibarlı, faktoloji materiallarla zəngin bir mənbə kimi dəyərlidir. Memuar Azərbaycan mətbuatının yaranma prosesi, inkişaf istiqamətləri və meyilləri haqqında geniş təsəvvür əldə etməyə kömək etmək gücündədir. Əsər erməni şovinistlərin Azərbaycan xalqına qarşı apardığı məkrli və çirkin mübarizənin anatomiyasını açmaq üçün tutarlı material kimi araşdırılmalıdır. M.Ş.Mirzəyevin əsərindən də görünür ki, Azərbaycan ziyalıları ermənilərin məqsədyönlü antitürk siyasətini darmadağın etmək üçün birləşə bilmiş, milli düşüncə tariximizə öz töhfələrini vermişlər. Memuar həm də müasir dövrlə tamamilə səsləşməkdədir. Bu gün erməni faşistlərlə apardığımız haqlı mübarizədə memuar bizim üçün tarixi təcrübə və yaddaş rolu oynaya bilər.

## Ədəbiyyat / *References*


1. Axundov, M.F. Əsərləri: [3 cilddə] / M.F.Axundov, tərtib edəni: H.Məmmədzadə. – Bakı: Elm, – c. 3. – 1988. – 388 s.
2. Azərbaycan mətbuat tarixi antologiyası: [2 cilddə / Nəşrə hazırlayanı və elmi redaktorları: Şamil Vəliyev, Nəsiman Yaqublu. – Bakı: Elm və təhsil, – c. 2. – 2010. – 440 s.
3. Əkinçi. 1875-1877. Tam mətni / Transliterasiya və tərtib edəni: Turan Həsənzadə, ön sözün müəllifi və redaktoru: Əziz Mirəhmədov. – Bakı: Avrasiya Press, – 2005. – 496 s.
4. Məhəmmədzadə, M. İki inqilab arasında. Azərbaycan türk mətbuatı / M.Məhəmmədzadə, ərəb əlifbasından çevirib tərtib edən, ön söz, lüğət və qeydlərin müəllifi Alxan Bayramoğlu. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2004, – s. 14-24.







5. Məmmədquluzadə, C. Əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə, tərtib edəni və izahların müəllifi Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü İsa Həbibbəyli. – Bakı: Öndər Nəşriyyatı, – c. 4. – 2004. – 472 s.
6. Mirzəyev, M.Ş. Qafqazda türk mətbuatı tarixinə dair materiallar / M.Ş.Mirzəyev, tərcümə: Orxan İsayev. – Bakı: – 2021. – 200 s.
7. Zeynalov, A. Azərbaycan mətbuatı və çar senzurası (1850-1905) / A.Zeynalov, – Bakı: Elm, – 2006. – 328 s.


## Азербайджанская пресса второй половины XIX – начала XX века и армянский национализм

***(на основе мемуаров М.Ш.Мирзоева «Материалы по истории тюркской прессы на Кавказе»)***


**Шахбаз Шамыоглу**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: shindi61@mail.ru



**Резюме**. Во второй половине XIX – начале XX века проводилась в жизнь различными способами коварная тенденциозная политика с целью учинения препятствий для национально-духовного прогресса азербайджанского народа, трудностей в процессе создания прессы. С закрытием «Кешкюля» (1891) до начала издания «Шарги-Рус» (1903) возможностей для издания органов печати на азербайджанском языке не было. В проведении этой неприязненной политики совместно с царскими чиновниками особо активную деятельность проявляли армянские цензоры, занимающие ответственные должности в Тифлисском Комитете по делам печати. Обстоятельные сведения об этом приводятся в мемуарах Мирзы Шарифа Мирзоева «Материалы по истории тюркской прессы на Кавказе», первого азербайджанского цензора по восточным языкам, служившего в 1906–1918 гг.. В этих мемуарах, запрещенных к изданию в советские годы, нашли отражение множество фактов об организации группировок армянскими цензорами Кишмишевым и Карахановым против азербайджанской прессы, выступавших с тенденциозными заметками в русских газетах того времени, в которых обвиняли азербайджанских интеллигентов в панисламизме и пантуркизме.

В статье на основе материалов данных мемуаров проведён анализ по оценке противоборствующей деятельности армян против создания национальной прессы, для подтверждения предположений и аргументов приведены ссылки из других источников, в том числе воспоминания Дж.Мамедкулизаде и Г.Зардаби. В итоге автор приходит к заключению о том, что имеется настоятельная необходимость расширенного и разностороннего исследования материалов, отражающих бесчестную политику армян, направленную против процесса формирования и создания азербайджанской прессы.



**Ключевые слова:** Мирза Шариф Мирзоев, мемуары, азербайджанская пресса, национально-духовный прогресс, тенденциозная политика, армянские цензоры